*Heydər Əliyev - xalq birliyi əbədidir!*

# AĞSTAFA



*"Ağstafanın füsunkar təbiəti, gözəl insanları vardır".*
Heydər Əliyev

Qəzet 1991-ci ildən çıxır | İctimai-siyasi qəzet | № 01-02 (812-813) | 15-22 yanvar 2016-cı il | Qiymətı 50 qəpik

**Ağstafa Rayon İcra Hakimiyyətinin orqanı**

# İlham Əliyev şəhidlərin əziz xatirəsini yad edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yanvarın 20-də - Ümumxalq Hüzn Günündə Şəhidlər xiyabanında 20 Yanvar şəhidlərinin xatirəsini yad ediblər.**

## Ağstafa Rayon İcra Hakimiyyəti rəhbərliyinin və aparatın şöbələrinin 2016-cı ildə vətəndaşların qəbulu günlər

| Adı, soyadı və atasının adı | Vəzifəsi | Qəbul | |
|---|---|---|---|
| | | Həftənin günü | Vaxt |
| **Quliyev Məhərrəm Böyükağa oğlu** | **Rayon İcra hakimiyyətinin başçısı** | **Çərşənbə axşamı** | **10-00** |
| Tatarov Ramiz Cahangir oğlu | RİH başçısının birinci müavini | Bazar ertəsi, Çərşənbə | 10-00 15-00 |
| Hacıyev Aydın Əli oğlu | Başçının müavini-Sosial - iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri | Cümə, Cümə axşamı | 10-00 15-00 |
| Eyyubova Lalə Sücayət qızı | Başçının müavini-İctimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri | Cümə axşamı, Cümə | 10-00 15-00 |
| Qurbanov Şaiq Mücrəvan oğlu | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri | Bazar ertəsi, Çərşənbə axşamı, Cümə axşamı, Cümə | 10-00 14-00 |
| Hüseynov Müşfiq Məmmədqulu oğlu | Hüquq şöbəsinin müdiri | Çərşənbə axşamı, Çərşənbə, Cümə axşamı, Cümə | 10-00 14-00 |
| Mustafayev Sənan Abış oğlu | Memarlıq və tikinti şöbəsinin müdiri | Çərşənbə, Bazar ertəsi, Çərşənbə axşamı, Cümə | 10-00 14-00 |
| Əfəndiyev Yasin Əmir oğlu | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri | Cümə axşamı, Bazar ertəsi, Çərşənbə, Cümə | 10-00 14-00 |

Qeyd: Şəhid ailələri, müharibə veteranları və I-ci və II-ci qrup əlillər növbədənkənar qəbul olunurlar.
İş günləri hesab olunmayan bayram günləri ilə üst -üstə düşən qəbul günləri növbəti iş gününə keçirilir.
Vətəndaşların problemlərini operativ həll etmək üçün 24 saat fəaliyyət göstərən (qaynar xətt)225-32-86
Əlaqə telefonları: 225-12-95, 225-15-56

# Tarixin faciəsi

***Qanlı yanvar faciəsindən 26 il keçsə də, xalqımız o müdhiş gecənin, törədilən faciənin ağrıları ilə bu gün də yaşayır. Bu vəhşiliyi törədənlərə sonsuz nifrətlərini bildirən əhali vətənpərvər oğul və qızlarımızın əziz xatirələrini həmişə əziz tutur.***

Məktəbimizin şagird və pedaqoji kollektivləri də bu sırada öz dərin ehtiramlarını bildirir, şəhidlərin ruhuna aid bir sıra tədbirlər həyata keçirirlər. Hər şeydən əvvəl məktəbimizdə müntəzəm işıq üzü görən divar qəzetləri 20 Yanvar ərəfəsində öz oxucularına vətənin azadlığı və suverenliyi uğrunda canlarından keçən insanların fədakarlıqları barədə ətraflı məlumat verdi. Şəhidlər haqqında yazılmış kitabların sərgisi də bu işin tərkib hissəsindən biri oldu. 5-ci sinifdən 10-cu sinfə kimi təhsil alan şagirdlərin rəsm sərgisi təşkil olundu. İstedadı olan şagirdlər 20 Yanvar faciəsinin dəhşətlərini öz bacarıqlarına uyğun çəkib nümayiş etdirdilər.

Məktəbimizdə yuxarı sinif şagirdlərinin təşkil etdikləri "Dəyirmi masa" söhbətləri 20 Yanvar faciəsinə həsr olunan mühüm tədbirlərdən biri oldu. "Dəyirmi masa" arxasında keçirilən söhbətlər yeniyetmələrin vətənə, doğma Azərbaycana, yaşadıqları bölgəyə olan məhəbbətlərinin tərənnümünə çevrildi. Bütün bunların davamı olan ədəbi-bədii gecələrdə səslənən şeirlər, fikirlər də məktəbimizin şagirdlərinin vətən, yurd sevgisini əks etdirdi.

Yanvarın 20-də bütün ağstafalılar kimi, məktəbimizin müəllim və şagird kollektivi də Şəhidlər xiyabanını ziyarət etdilər. Şagirdlərimiz, müəllimlərimiz şəhidlərimizin qəbirləri üzərinə tər çiçək dəstələri qoyaraq onlara allahdan rəhmət dilədilər.

***Rahilə Mansurova,***
***Qaçaq Kərəm kənd orta məktəbinin direktoru***

## Heç kim unudulmur, heç nə yaddan çıxmır

# 20 Yanvar faciəsinin 26-cı ildönümü qeyd edildi

Hər il yanvarın 20-də rus işğalçı ordusunun törətdiyi faciənin ildönümü ümümxalq hüzn günü kimi respublikamızın hər bir guşəsində qeyd olunur. O, müdhiş gecədən 26 il keçsə də, bütün tərəqqipərvər bəşəriyyət bu qanlı faciəni unutmur, onu insanlığa qarşı törədilmiş ən qəddar cinayət kimi qiymətləndirir. Bununla bərabər 20 Yanvar faciəsi özünəməxsus qəhrəmanlıq tarixi olan Azərbaycan xalqının milli müstəqillik və azadlıq uğrunda mübarizəsi, yadelli işğalçılara qarşı igidlik və qürur rəmzi kimi yaddaşlara həkk olunmuşdur.





Bu il də respublikamızın bütün şəhər və rayonlarında, qəsəbə və kəndlərində 20 Yanvar faciəsinin ildönümünə geniş hazırlıq görülmüşdür. Rayonumuzda da ənənəyə uyğun olaraq “Qanlı Yanvar” gününə əvvəlcədən hazırlıq işləri aparılmışdır. Həmişəki kimi bu hazırlıq ilk növbədə Rayon icra hakimiyyəti aparatından başlamışdır. Bu məqsədlə icra hakimiyyətində 20 Yanvar faciəsinin 26-cə ildönümünün keçirilməsi ilə bağlı tədbirlər planı təsdiq edilmiş və həmin plana uyğun olaraq rayonun idarə və müəssisələrində 20 Yanvar hadisələri ilə əlaqədar toplantı və mühazirələr təşkil edilmişdir. Mədəniyyət ocaqlarında bu qanlı faciəyə həsr olunmuş yığıncaqlar keçirilmiş, sənədli filmlər nümayiş olunmuşdur.

Faciənin ildönümü ilə bağlı keçirilən toplantı və yığıncaqlarda rus silahlı qüvvələrinin azərbaycanlılara qarşı, dinc əhaliyə qarşı törədilmiş soyqırımdan söhbətlər aparılmış, azadlıq və müstəqillik uğrunda aparılmış mübarizə tariximiz yada salınmışdır.





Rayonun tədris ocaqlarında həyata keçirilən tədbirlər xüsusi yer tutmuşdur. Yanvarın 20-dək bütün məktəblərdə faciəyə həsr edilmiş xüsusi dərslər keçirilmiş və bu dərslərdə misli görünməmiş qanlı yanvar faciəsinin mahiyyəti açıqlanmışdır.

Bundan əlavə, 20 Yanvar faciəsinə həsr olunmuş bütün tədbirlərdə şəhidlərimizə aid xüsusi kompozisiyalar, ədəbi-bədii qiraətlər, o müdhiş gecəni əks etdirən səhnəciklər göstərilmişdir.



Hər il olduğu kimi, bu il də Ağstafadakı şəhidlər xiyabanı faciə qurbanlarına həsr edilmiş tədbirlərin mərkəzinə çevrildi. Yanvarın 20-də şəhidlər xiyabanına bütün ağstafalıların ziyarəti təşkil olundu, qanlı yanvar şəhidlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Qanlı yanvar faciəsinə həsr olunmuş mərasimdə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev, hüquq mühafizə orqanlarının rəhbərləri və eləcə də bütün rəhbər işçilər xiyabanı ziyarət etmiş, şəhid ailələri ilə görüşmüş, onlarla söhbətlər aparmışlar. Daha sonra Şəhidlər xiyabanına gələnlər şəhidlərin qəbirlərini ziyarət etmiş, faciə qurbanlarının qəbirləri üzərinə gül-çiçək dəstələri qoymuşlar.

Şəhidlər xiyabanında keçirilən tədbir onu göstərdi ki, bütün Azərbaycan xalqı kimi vətən yolunda canlarını qurban verən, şəhid olan igid oğullarımız heç vaxt unudulmayacaq və onlar yaddan çıxmayacaqlar.





## 2016-CI İL MULTİKULTURALİZM İLİDİR

*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizin talerantlıq ənənələrinə, mədəniyyətlər və sivilizasiyalararası dəyərlərə mühüm töhfələr verildiyini nəzərə alaraq bu il 11 yanvar tarixli sərəncamı ilə 2016-cı ili "Multikulturalizm" ili elan etmişdir.*

Gündəlik həyatımıza daxil olan multikulturalizm ölkəmizdə artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir.

# Mədəni müxtəlifliklər qorunmalıdır

Bir ölkədə yaşayıb müxtəlif xalqları təmsil edənlərin mədəniyyət hüquqlarını tanıyan humanist dünya görüşü və ona uyğun olan siyasət kimi anlaşılan mültikulturalizm bütövlükdə müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması və inkişafı deməkdir.

Ölkəmizin hər yerində olduğu kimi, rayonumuzda da multikulturalizm prinsipləri həmişə qorunmuş, çox mədənilik halları mövcud olmuş və bu ənənələr demək olar ki, bu gün də yaşamaqdadır.

Ağstafanın tarixinə nəzər salınsa aydın görmək olar ki, rayonun ayrı-ayrı kəndlərində, eləcə də Ağstafa şəhərində beynəlmiləlçilik ənənələri qorunmuş, rus, gürcü, malakan, erməni, alman və digər millətlərdən olan insanlar burada yaşamış və heç bir maneəyə rast gəlmədən xoşbəxt həyat tərzi keçirmişlər. Rayonda olan mövcud şərait həmişə millətlərin öz adət və ənənələrini, mədəniyyətlərini qoruyub saxlamalarına yaxşı imkan yaratmışdır. Məhz bütün bunların nəticəsi olaraq ayrı-ayrı millətlərdən olan insanlar birbiriləri ilə ailə həyatı qurmuş, xoşbəxt həyat tərzi keçirmişlər. Bu gün həmin millətlərin nümayəndələri yenə də rayonumuzda sərbəst yaşamaqdadır.

Rayonun təhsil müəssisələrində təhsil alan gənclərə digər sivilizasiyalı xalqların mədəniyyətləri, adət-ənənələri həmişə aşılanır, onların dünya görüşlərinin formalaşmasına yönəldilən digər tədbirlər həyata keçirilir ki, bu da gənc nəsildə ayrı-ayrı xalqların mədəniyyətlərinə hörmət hislərinin güclənməsinə gətirib çıxarır.

Multikulturalizmin xüsusiyyətlərinin genişlənməsinə ölkə rəhbəri cənab İlham Əliyev tərəfindən göstərilən diqqət və qayğı hər gün hiss olunmaqdadır. Bu günlər multikulturaliz məkanı olan Bakı şəhərinin ən məşhur məscidlərinin birində sünni və şiələrin birgə ibadət etmələri, dualar oxumaları, azan vermələri deyilənlərə tam aydınlıq gətirir. BU kimi tədbirlər rayonumuzun ayrı-ayrı yaşayış məntəqələrindəki din ocaqlarında, məscidlərdə keçirilmişdir.

Bütün bu deyilənlərdən belə bir rəyə gəlmək olar ki, Azərbaycan sözün əsil mənasında müxtəlif xalqların dinc, sərbəst, dostluq və qardaşlıq şəraitində yaşadıqları bir məkandır. Burada yaşayan bütün millətlərin nümayəndələri Azərbaycanı özlərinin ortaq vətənləri hesab edirlər.

# Tatlı kəndində görüş

***Rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev əvvəlki illərdəki xoş məramlı ənənələri davam etdirərək bu ilin ilk günlərində də ictimaiyyətlə görüşlərini davam etdirmişdir. M. Quliyev yanvarın 21-də Tatlı kəndində olmuş və kənd orta məktəbinin binasında vətəndaşlarla görüş keçirmişdir. Görüşdə Tatlı kənd inzibati ərazi dairəsinin nümayəndəsi Qoşqar Hüseynov ötən ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə yığıncaq iştirakçılarına ətraflı məlumat vermişdir. O, qeyd etmişdir ki, kənddə inşa olunan yeni məktəb binası bütün kənd əhalisinin böyük sevincinə səbəb olmuş, gənclərin təlim-tərbiyəsi işinin daha da yaxşılaşdırılmasına şərait yaratmışdır.***

Kənd əhalisinin məşğulluğu olan heyvandarlıq və əkinçilik sahəsində də bir sıra irəliləyişlər əldə edilmiş, əvvəlki illərə nisbətən daha çox məhsul əldə olunmuşdur. Kəndin ərazisindəki dəmyə torpaqların hər hektarından 27 sentner taxıl götürülmüşdür ki, bu da əvvəli ildəkindən çoxdur.

Q. Hüseynov öz çıxışında kənddə mövcud olan bəzi problemlərə də toxunmuş və həmin problemlərin, çətinliklərin aradan qaldırılması üçün təkliflər



irəli sürmüşdür. O, qeyd etmişdir ki, Tatlı kənd inzibati ərazi dairəsinin inzibati binasının dam örtüyünün təzələnməsi, kənddə yeni uşaq bağçası-körpələr evinin tikilməsi, Yaradullu kəndində yeni məktəb binasının inşa olunması qarşıda duran ən mühüm məsələlərdir.

Yığıncaqda kənd sakinləri Yaqub İsmayılov, Fayaz Həsənov, Məmməd Məmmədov və başqaları çıxış edərək kənd icra nümayəndəsi Q. Hüseynovun 2015-ci ildəki fəaliyyətini yaxşı qiymətləndirmiş və kənddə mövcud olan bəzi problemlərdən danışmışlar. Qeyd olunmuşdur ki, kənd orta məktəbinin yuxarı siniflərində təhsil alan əlaçı şagirdlərin Ağstafa şəhərindəki liseydə təhsilini davam etdirməsi məktəbdə bəzi problemlər yaratmışdır. Kənddə mövcud olan sudan qənaətlə istifadə olunmur, itkiyə yol verilir. Bunun üçün həmin arxların yerində beton kanalların düzəldilməsi və həmin kanalları qoruyan adamların təhkim olunması vacib məsələdir.

Görüşdə Rayon icra hakimiyyətinin başçısı M. Quliyev geniş nitq söylədi. O, son vaxtlar respublikada və rayonda görülən işlərdən ətraflı danışdı, görüş iştirakçılarının verdikləri sualları cavablandırdı, onların qaldırdıqları problemlərin həll ediləcəyini bildirdi. M. Quliyev qeyd etdi ki, Vurğun qəsəbəsindən Köhnə Qışlaq kəndinə qədər gedən yolun asfaltlaşdırılması, Yaradullu kəndində yeni məktəb binasının, Tatlı kəndində uşaq bağçası-körpələr evinin tikilməsi rayon rəhbərliyinin diqqət mərkəzində duran məsələlərdir. Bu məsələlərin və eləcə də digər problemlərin həll olunması üçün ardıcıl tədbirlər görüləcəkdir.

Yığıncaqdan sonra Rayon icra hakimiyyətinin başçısı M. Quliyeb məktəbin həyətində kənd sakinləri ilə səmimi söhbətlər etmişdir.

***İ. Əliyev***

# Süni qiymət artımına yol verilməməlidir

## *(Rayon icra hakimiyyətində keçirilmiş müşavirədən qeydlər)*





***Yola saldığımız 2015-ci ilin son günlərində dünyanı çalxalayan böhran respublikamızdan da yan keçməmişdir. Milli manatın məzənnəsinin kəskin şəkildə aşağı düşməsi ölkəmizin sosial-iqtisadi həyatında bir sıra çətinliklər yaratmışdır. Bu çətinliklərin qarşısını almaq, ölkənin iqtisadi inkişafını təmin etmək və əhalinin güzəranını sabit saxlamaq üçün Respublika Prezidenti cənab İlham Əliyev yeni ilin ilk günlərindən mühüm tədbirlər həyata keçirməyə başlamışdır.***

Bu günlərdə prezident administrasiyasında keçirilmiş iclas da milli manatın devalvasiyasının yaratdığı böhran vəziyyətinin yaratdığı problemlərə həsr olunmuşdu. Respublika Prezidenti cənab İlham Əliyev iclasda iqtisadi sabitliyi qorumaq, əhalinin sosial problemlərini nisbətən yüngülləşdirmək məqsədilə görülən konkret tədbirlərdən, aparılan mühüm işlərdən geniş bəhs etmiş, ayrı-ayrı nazirliklərə və idarələrə mühüm tapşırıqlar verilmişdir.

Rayon icra hakimiyyətinin iclas zalında keçirilən müşavirə də respublika prezidenti administrasiyasında keçirilmiş iclasda qarşıya qoyulan vəzifələrə həsr olunmuşdu. Müşavirədə rayonun ictimai təşkilatlarının nümayəndələri, şəhər ziyalıları, müharibə və əmək veteranları, sahibkarlar və iş adamları, kənd icra nümayəndələri və bələdiyyələri iştirak etmişlər.

Müşavirəni giriş sözü ilə Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev açmışdır. O, qeyd etmişdir ki, hökümət nümayəndələrinin iştirakı ilə keçirilən son iclasda cənab prezident İlham Əliyevin rayon icra hakimiyyətləri qarşısında qoyduğu mühüm vəzifələr hər birimizin cari ildə qarşımızda duran vəzifələrin konkret planıdır. Manatın məzənnəsinin ucuzlaşması ilə əlaqədar dövlət başçımızın ardıcıl olaraq həyata keçirdiyi sosial tədbirlər bütün vətəndaşlar tərəfindən razılıq hissi ilə qarşılanmışdır. Əhalinin aztəminatlı hissəsinin sosial vəziyyətini qorumaq, onları iqtisadi böhranın caynağından xilas etmək üçün pensiyaların, müavinətlərin və yardımların, o cümlədən əmək haqlarının fevralın 1-də artırılması hörmətli prezidentimiz tərəfindən atılmış ən humanitar bir addımdır.

Hökümətin iclasında böhran vəziyyəti ilə əlaqədar olaraq ticarət obyektlərində süni qiymət artımına qarşı təsirli tədbirlər görmək də ciddi vəzifə kimi qarşıya qoyulmuşdur. Bu sahədə Ağstafa şəhərində də mütəmadi işlər görülür. Bu məqsədlə süni qiymət artımına nəzarət etmək üçün Rayon icra hakimiyyətində xüsusi komissiya yaradılmışdır. Komissiya üzvləri dəstələrə bölünərək şəhər və kəndlərimizdə fəaliyyət göstərən market və mağazalarda, istehsal müəssisələrində qiymət intizamına, ərzaq məhsullarının keyfiyyətinə nəzarət edirlər.

Dövlət başçısının sahibkarlara, tikinti işləri ilə məşğul olan iş adamlarına sonsuz qayğısı da təqdirəlayiqdir. Sahibkarlara güzəştli kreditlərin verilməsi, tikintinin sürətləndirilməsi, kənd təsərrüfatı məhsulları istehsalının artırılması üçün nəzərdə tutulan tədbirlər rayonumuzda da sözsüz yerinə yetirilməlidir.

Müşavirədə rayon prokuroru A. Surxayev, "Ağstafa" qəzetinin redaktoru İ. Əliyev, sahibkarlar V. Kərimov, N. Vəliyev, Q.Yusifov və başqaları manatın devalvasiyası ilə əlaqədar həyata keçirilən tədbirlərdən, süni qiymət artımına qarşı aparılan mübarizədən, sahibkarlara və iş adamlarına yaradılan şəraitdən geniş söhbət açdılar, bu sahədə dövlətimizin gördüyü işlərə yüksək qiymət verdilər.

Rayon icra hakimiyyətinin başçısı Məhərrəm Quliyev axırda iştirakçıların suallarını cavablandırmış, bu il rayonda həyata keçiriləcək yeni layihələrdən danışmışdır.

# İcra nümayəndələri

## Eynallı kəndi



***Ağstafa rayon İcra hakimiyyəti Başçısının Eynallı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Şakir Hüseynov yanvarın 15-də 2015-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə hesabat vermişdir.***

Ş. Hüseynov hesabat məruzəsində qeyd etmişdir ki, Eynallı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik Eynallı kənd yaşayış məntəqəsini əhatə etməklə 750 təsərrüfatı, 2556 nəfər əhalisi vardır. Kənd sakinlərinin əsas məşğuliyyəti əkinçilik və maldarlıqdır. 2014-2015-ci təsərrüfat ilində kənd sakinləri 320 hektar sahədə taxıl əkmiş və hər hektardan 28 sentner məhsul tədarük etmişlər. Bununla yanaşı əkinçiliklə məşğul olan kənd sakinləri ötən təsərrüfat ilində becərdikləri yazlıq bitkilərə aqrotexniki qaydalarda qulluq göstərmiş, arpa, kartof, soğan və digər bostan sahələrindən əvvəlki illərə nisbətən daha çox məhsul tədarük etmişlər. Kənd sakinləri tədarük etdikləri məhsulları əsasən rayonda, respublikanın ayrı-ayrı rayonlarındakı və Bakı şəhərindəki bazarlarda satmışlar.

Ölkə başçısı cənab İlham Əliyevin kənd təsərrüfatı istehsalçılarına göstərdikləri diqqət və qayğı öz müsbət nəticəsini vermişdir. Kənd təsərrüfatı istehsalçılarına verilən güzəştlər onların tabeliklərində olan sahələrdən daha çox məhsul yetişdirilməsinə geniş imkanlar yaratmışdır.

Hesabat dövründə kənd təsərrüfatı sahələrinin suvarılması işi də qənaətbəxş təşkil edilmiş, kəndin ərazisində yaşayan əhalinin suvarma, içməli suya olan tələbatlarının ödənilməsində heç bir problem yaranmamışdır.

Ş.Hüseynov məruzəsində qeyd etmişdir ki, Eynallı kəndində heyvandarlığın inkişaf etdirilməsi üçün də əlverişli şərait vardır. Kənd əhalisinin gəlir mənbəyinin bir hissəsini məhz heyvandarlıqdan əldə edilən gəlirlər təşkil edir. 2015-ci ilin sonuna olan məlumat göstərir ki, kənddə mövcud olan təsərrüfatlarda 485 baş iri buynuzlu mal-qara, 2591 baş xırda buynuzlu davar, 6915 baş quş vardır.

Hesabat dövründə kənddə yaşayan səkkiz şəhid ailəsinə, üç Böyük Vətən müharibəsi əlilinə və iştirakçısına, bir Çernobıl əlilinə, iki Qarabağ əlilinə və iştirakçısına daim qayğı göstərilmiş və onlara Qurban bayramlarında kəsilmiş xırda buynuzlu davarlardan qurban payları verilmişdir.

Məruzəçi göstərmişdir ki, hesabat dövründə Rayon icra hakimiyyətinin başçısı cənab M. Quliyev dəfələrlə kənd sakinləri ilə görüşlər keçirmiş, onları dinləmiş, əhalini narahat edən problemlərlə maraqlanmış və problemlərin aradan qaldırılması üçün əməli tədbirlər görülmüşdür. Hesabat ilində kənddə pərakəndə çəkilmiş qaz xətləri planlı şəkildə yenisi ilə əvəz olunmuş, kənd ağsaqqalları üçün park salınmış, yeni yaşayış məntəqələrinə 2 ədəd transformator qoyulmuş, yaşayış evlərinə qaz xətləri çəkilmişdir. Bütün bunlardan əlavə kəndin ərazisində 12 ədəd 4 kilovoltluq, 4 ədəd 10 kilovoltluq dayaqlar qoyulmuş, 500 metr elektrik xətti dəyişdirilmişdir. Ümumiyyətlə 2015-ci il Eynallı kəndinin sakinləri üçün ən yaddaqalan illərdən biri olmuş və ötən ilin noyabr ayında keçirilən parlament seçkiləri ən nümunəvi qaydada təşkil olunmuşdur. Seçkidə həmişə olduğu kimi Yeni Azərbaycan Partiyasının namizədinə yekdilliklə səs verilmişdir.

Məruzəçi Ş.Hüseynov hesabat məruzəsində icra nümayəndəliyinin və bələdiyyənin daxili imkanları hesabına görülən işlər barədə də ətraflı məlumat verdi. O, qeyd etdi ki, kəndin ərazisində hesabat ilində 2.5 kilometr suvarma arxları təmizlənmiş, yol kənarı ağaclar ağardılmış, kənd əhalisinin içməli su kimi istifadə etdikləri su durbalarının çürümüş hissələri dəyişdirilmiş, kənddə yeni bələdiyyə parkı tikilmişdir. Bütün bunlardan əlavə, kənddə hesabat ilində iki imkansız ailənin yeni tikilmiş mənzilinə qaz xətti çəkilmiş, bir neçə ailəyə isə maddi yardım edilmişdir.



Məktəbin qazanxana sistemində mövcud olan qüsurlar aradan qaldırılmış və bunun nəticəsi olaraq hazırda məktəbin qazanxana sistemi tam gücü ilə işləyir.



Hesabat ili dövründə kənddə 17 toy məclisi təşkil olunmuş, 13 ailənin nikahı qeydə alınmışdır. Ötən bir ildə kənddə 31 uşağın doğumu qeydə alınmışdır ki, onlardan 30-na doğum şəhadətnaməsi yazılmış, 1 nəfərin valideyninin sənədindəki çatışmazlıqlar onlara izah olunmuşdur.

Hərbi çağırış əvvəlki illərdə olduğu kimi, 2015-ci ildə də yüksək səviyyədə təşkil olunmuşdur. Bütün bunların nəticəsi olaraq keçən il kənddə ordudan yayınma halları qeydə alınmamışdır.

Milli bayramların keçirilməsinə də xüsusi diqqət yetirilmiş, ən yaddaqalan bayramlardan biri olan Novruz bayramı yüksək səviyyədə təşkil olunmuşdur.

2016-cı il üçün görüləcək işlər təhlil olunmuş və həmin işlərin icrası üçün geniş tədbirlər planı hazırlanılmışdır. Belə ki, kənd sakinlərinin təklifləri əsasında nəzərdə tutmuşuq ki, 2016-cı ildə 1940-cı ildə kənddə inşa olunmuş uşaq bağçası-körpələr evini yenisi ilə əvəz edək, yeni poçt binasının inşa olunması üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldıraq. Həmçinin, kənd icra nümayəndəliyinin inzibati binası müasir tələblərə cavab vermədiyinə görə yeni inzibati binanın tikilməsini də qarşımıza məqsəd qoymuşuq.

Ş. Hüseynov məruzənin sonunda qeyd etdi ki, 2016-cı ildə qarşıda duran vəzifələrin yerinə yetirilməsi, kənddə mövcud olan problemlərin aradan qaldırılması üçün var qüvvəmizi sərf edəcəyik.

* * *

Eynallı kənd icra nümayəndəsi Şakir Hüseynovun hesabat məruzəsi yığıncaqda geniş müzakirə olundu. Kənd sakinləri Hüseyn Mustafayev, Kənan Qəribov, Rəfayıl İmamverdiyev və başqaları öz çıxışlarında icra nümayəndəsi Ş. Hüseynovun fəaliyyətini yüksək qiymətləndirdilər. Onlar həmçinin kənd əhalisi üçün vacib olan məsələlərdən danışdılar, kəndin sosail-iqtisadi problemlərindən söhbət açdılar və bu problemlərin 2016-cı ildə aradan qaldırılması üçün təkliflər verdilər.

Yığıncaqda Rayon icra hakimiyyətinin məsul işçisi Kamran Abbasov iştirak etmişdir.

## Böyük-Kəsik kəndi

Ağstafa rayon İcra Hakimiyyəti Başçısının Böyük-Kəsik kənd inzibati ərazi dairəsi üzrə nümayəndəsi Nadir Mikayılov bu günlər kənd ictimaiyyəti qarşısında 2015-ci ildə gördüyü işlər və qarşıda duran vəzifələr barədə hesabat vermişdir. Hesabat yığıncağında kəndin bir qrup ziyalıları, iş adamları, müəllimlər, mədəniyyət və tibb işçiləri iştirak etmişlər. N. Mikayılov demişdir:

- 2015-ci il Böyük-Kəsik kəndinin sakinləri üçün də ən uğurlu illərdən biri olmuşdur. Yola saldığımız ildə kəndin sosial-iqtisadi həyatında bir sıra dəyişikliklər olmuş, əhalinin həyat səviyyələrinin yaxşılaşdırılması üçün əməli tədbirlər görülmüşdür.

Böyük-Kəsik kəndində bu gün 1526 nəfər əhali məskunlaşır. Onlardan 793 nəfəri qadın, 733 nəfəri kişidir. Kənddə yaşayan əhalinin 1113 nəfəri əmək qabiliyyətlidir ki, onlardan 586 nəfərini qadın, 527 nəfərini kişilər təşkil edir. Nümayəndəlikdə vətəndaşların 351 şəxsi təsərrüfatına şəxsi hesab açılmışdır. Kənddə bir şəhid ailəsi, iki Qarabağ müharibəsi əlili, bir Çernobıl müharibəsi iştirakçısı, bir Əfqanıstan müharibəsi veteranı yaşayır.

Məruzəçi göstərmişdir ki, hesabat ilində kəndin sosial problemlərinin həlli istiqamətində görülən işlərin ən əsaslarından biri olan suvarma arxlarının təmizlənməsi olmuşdur. 1000 metr məsafədə arxların lildən təmizlənməsi əkin sahələrinin suvarılmasında yaxşı imkan yaratmışdır. Bundan başqa hesabat ilində kənddə içməli su artezianında su nasosu təmir olunmuş, kənddə sel sularının axıdılması üçün 100 metr uzunluğunda arx çəkilmiş, kəndin ərazisində 700 kvadrat metr sahə zibillikdən təmizlənmiş, kəndarası yollardakı keçidlərə 3 ədəd boru qoyulmuşdur. Bundan başqa keçən il iki imkansız ailəyə odun yanacağı verilmiş, bir imkansız ailəyə maddi yardım göstərilmişdir.

Əvvəlki illərin ənənələrinə sadiq olaraq Böyük-Kəsik kəndində də el şənlikləri yüksək səviyyədə keçirilmiş, 9 May Qələbə günü, Novruz bayramı şənliyi, yeni dərs ilinin başlanması, məktəbdə son zəngin çalınması yüksək səviyyədə təşkil olunmuşdur. Bu şənliklərdə kəndin bütün sakinləri iştirak etmişlər.

Məruzəçi qeyd etmişdir ki, hesabat ilində nümayəndəliyə müxtəlif təşkilatlardan 14 məktub daxil olmuş, həmin məktublar yoxlanılmış, təhlil edilmiş və müxtəlif idarə, müəssisə, təşkilatlara, vətəndaşlara cavablar verilmişdir. Bundan başqa nümayəndəlikdə 200 şifahi müraciətə baxılmışdır. Daxil olmuş müraciətlərə qanunçuluqda müəyyən edilmiş vaxtda və qanunamüvafiq qaydada baxılaraq müraciət edənlərə rəsmi və şifahi məlumatlar verilmişdir.

Ötən ilin yekunlarına görə Böyük-Kəsik kəndində 27 uşaq doğulmuş, onlardan 16-na nümayəndəlik tərəfindən, digərlərinə isə Ağstafa Qeydiyyat Şöbəsi tərəfindən doğum şəhadətnaməsi verilmişdir. Nümayəndəlikdə 9 nikah bağlanmışdır.

Nümayəndəliyin ərazisində bir orta məktəb, 1 mədəniyyət evi, 1 klub, 1 kitabxana, 1 uşaq bağçası, Ağstafa atçılıq damazlıq müəssisəsi, Böyük-Kəsik dəmiryol stansiyası, poçt və ATS fəaliyyət göstərir. Həmin təşkilatlarla hesabat ilində sıx əlaqə saxlanılmış, onların fəaliyyətlərinin istiqamətləndirilməsinə lazımi köməkliklər göstərilmişdir.

Məruzəçi öz hesabatında görülən işlərlə yanaşı problemlərdən danışmış və həmin problemlərin həll edilməsi üçün nümayəndəliyin üzərinə düşən vəzifələri yığıncaq iştirakçılarına çatdırmışdır.

Yığıncaqda icra nümayəndəsi Nadir Mikayılovun məruzəsi geniş müzakirə olunmuş və onun bir illik fəaliyyəti kafi qiymətləndirilmişdir.

Müzakirələrdə çıxış edənlər kənd həkim məntəqəsinin əsaslı təmir olunmasını, kənddə yeni məktəb, uşaq bağçası tikilməsini, kənddəki elektrik xətlərinin və dayaqlarının dəyişdirilməsini təklif etmişlər.

Yığıncaqda Rayon icra hakimiyyətinin məsul işçisi Ramiz İmanov iştirak etmişdir.

# hesabat verirlər

## Muğanlı kəndi



Muğanlı kənd icra nümayəndəsi Nəbi Mürsəquliyev bu il yanvar ayının 13-də 2015-ci ildə görülmüş işlər və qarşıda duran vəzifələr barədə hesabat vermişdi.

N.Mürsəquliyev qeyd etmişdir ki, Muğanlı rayon mərkəzindən ən uzaqda yerləşən yaşayış məntəqələrindən biridir. Kəndin ərazisi 1737 hektar torpaq sahəsindən ibarətdir. Bu torpaq sahəsinin 1066 hektarı xüsusi mülkiyyətdə, 544 hektarı ümumi istifadədə, 33 hektarı perspektiv inkişafda olan, 7 hektarı isə fond torpağıdır. Nümayəndəlikdə 586 təsərrüfat olmaqla 498 yaşayış evi, 2849 ailə vardır.

Kəndin ərazisində həyətyanı torpaq sahələrinin pasportlaşdırılması rayonlararası yerquruluşu idarəsinin mütəxəssisləri tərəfindən ölçülüb başa çatdırılmışdır.

Kənd icra nümayəndəliyi həmişə yerli bələdiyyə ilə birgə işləyir, kənddə mövcud olan problemlərin həll edilməsi üçün qətiyyətli tədbirlər görürük. Hazırda kənd bələdiyyəsi tərəfindən icarəyə verilmiş torpaqların icarə haqlarının, eləcə də əhalinin pay və həyətyanı torpaq sahələrinin icarə haqlarının vergilərinin toplanması işində bəzi çatışmazlıqlarımız vardır. Söz yox ki, bu problemlərin və çətinliklərin də aradan qaldırılması üçün birgə tədbirlər görəcəyik. Kənd icra nümayəndəliyi bələdiyyə ilə birlikdə Qarabağ veteranlarına, şəhid ailələrinə, imkansız ailələrə xüsusi diqqət və qayğı göstəririk.

2015-ci ildə nümayəndəliyin dəstəyi ilə əhalinin və bələdiyyənin vəsaiti hesabına kənddə 300 metr təsərrüfatdaxili arxlar təmizlənmiş, kəndarası yollarda 1800 metr təmir işi aparmışıq. Əhalinin pay torpaqları arasında gediş-gəlişi yaxşılaşdırmaq məqsədi ilə təsərrüfatdaxili arxlara körpü salınmış və bu sahədə mövcud problemlər həll olunmuşdur.

İcra nümayəndəliyi kəndin ərazisində mövcud olan mədəniyyət müəssisələrinin fəaliyyətinin yaxşılaşdırılmasına da xüsusi qayğı göstərmişdir. Belə ki, kəndin ərazisində mövcud olan kitabxana və klublar daxili imkanlar hesabına təmir edilmiş və həmin müəssisələrdə çalışan işçilərin fəaliyyətində 2014-cü illə müqayisədə xeyli müsbət dəyişikliklər olmuşdur.

Muğanlı kəndində 5 şəhid ailəsi, 1 nəfər Böyük Vətən müharibəsi əlili vardır. Bu ailələrə qayğı göstərilməsi icra nümayəndəliyinin, kənd bələdiyyəsinin, kəndin ziyalılarının daim diqqət mərkəzində olmuşdur. Qarabağ əlillərinə, imkansız ailələrə bayram günlərində və digər tarixi günlərdə qayğı göstərilməsinə xüsusi fikir verilmiş, onlara maddi yardımlar göstərilmiş, bayram töhfələri verilmişdir. 2 şəhid ailəsinə kömək məqsədi ilə onların hər birinə 1 hektar biçənək üçün torpaq sahəsi verilmiş, 2 nəfər Qarabağ müharibəsi veteranına, 4 imkansız ailəyə güzəştli icarə torpağı verilmişdir. Əhalinin suvarma suyuna olan ehtiyac və tələbatının ödənilməsi ilə əlaqədar deyə bilərəm ki, bütün işlər əvvəlki illərdən fərqlənmişdir. Hava şəraitinin quraq keçməsi növbəli əkin sahələrinin az olması bu sahədə müəyyən problemlər yaratmışdır. Bİr faktı qeyd edə bilərəm ki, bizim suvarma suyumuz Böyük-Kəsik, Sadıxlı və eləcə də Dilbaz damazlıq birliyinin təsərrüfatlarından keçir. Məlum məsələdir ki, vəziyyətin belə olması bizim təsərrüfatların suya olan tələbatının tam ödənilməsinə öz mənfi təsirini göstərir. Lakin bütün bunlara baxmayaraq biz əhalinin suvarma suyuna olan tələbatlarının ödənilməsində də mövcud olan çətinlikləri aradan qaldırmaq üçün bu il önəmli addımlar atmışıq. Belə ki, əhali arasında maarifləndirmə işi aparılmış, meşə arxlarının 400 metr hissəsində təmir işləri aparılaraq əhalinin istifadəsinə verilmişdir. Həmin arxlardan gələn su bizim təsərrüfatların suvarılmasında yaxşı imkanlar yaratdığı kimi Sadıxlı kəndinin təsərrüfatlarının bir hissəsində və eləcə də digər qonşu təsərrüfatlarda olan torpaq sahələrinin suvarılmasına müsbət təsir göstərmişdir. Sevindirici haldır ki, islahat dövründə verilmiş pay torpaqlarının suvarılmasında olan problemlər aradan qaldırılmışdır.

Hal-hazırda kəndin təsərrüfatdaxili arxlarından gələn su meşə arxından gələn sudur. Biz bununla yanaşı, ikinci meşə arxının lildən təmizlənməsi işinə də başlamışıq. Bu iş başa çatdıqdan sonra demək olar ki, 100 hektara yaxın sahənin də suvarılmasında əlverişli şərait yaradılacaqdır.

Muğanlı kəndinin iqtisadiyyatının əsasını təşkil edən sahələrdən biri də heyvandarlıqdır. Hal-hazırda kənd əhalisinin dolanışığının 65-70 faizi heyvandarlıqdan əldə edilən gəlir hesabına ödənilir. Hazırda kənddə mövcud olan təsərrüfatlarda 2089 baş iribuynuzlu mal-qara, 12950 baş xırda buynuzlu davar vardır.

Hesabat dövründə icra nümayəndəliyi kənddə maarifçiliyin inkişaf etdirilməsinə, gənc nəslin təlim-tərbiyəsinin daha yaxşı təşkil olunmasına da xüsusi fikir vermişdir. Hazırda kəndin ərazisində yerləşən orta məktəbdə 386 nəfər şagird vardır ki, onların təlim-tərbiyəsi ilə 50 nəfər müəllim məşğul olur. Hesabat ilində məktəbin 42 nəfər məzunundan 9 nəfəri test üsulu ilə ali məktəblərə, 6 nəfər məzun isə kolleclərə daxil olmuşlar. Bu göstəricilər əvvəlki illərə nisbətən xeyli çoxdur. Kənd məktəbində normal istilik sistemini təmin etmək üçün valideynlərin vəsaiti ilə 1300 litr dizel yanacağı alınmışdır. Məktəbin ərazisində 60-a yaxın müxtəlif növ dekorativ ağaclar əkilmişdir.

20 çarpayılıq Muğanlı kənd xəstəxanasında 4 nəfər ailə həkimi, 1 nəfər mama-ginekoloq, 1 nəfər terapevt, 27 nəfər tibb bacısı, 29 nəfər texniki işçi çalışır. Hesabat dövründə ayrı-ayrı yaş qruplarından olan 500 nəfər uşağa peyvənd edilmişdir. Hesabat dövründə kənd xəstəxanasında 860 manatlıq təmir işləri aparılmışdır ki, bu da vətəndaşlara daha yaxşı tibbi xidmət göstərilməsinə şərait yaratmışdır.

Gördüyümüz işlər bizdə arxayınçılıq yaratmır. 2016-cı ildə qarşımızda həlli vacib olan daha böyük vəzifələr durur. Belə ki, nəzərdə tutmuşuq ki, bu il kəndarası yolların bir hissəsini təmin edək, əhalinin içməli suya olan tələbatının tam ödənilməsində olan çətinlikləri aradan qaldıraq, kəndin mərkəzində olan istirahət bağının ətrafını hasarlayaq, kəndarası məhəllələrdə səliqə-səhman yaradaq, ailə və kəndli fermer təsərrüfatlarının yaradılmasına xüsusi qayğı göstərək. Qarşıya qoyduğumuz bu və ya digər məsələlərin, problemlərin həll edilməsi üçün imkanımız və şəraitimiz vardır. Çalışacağıq ki, bu imkanlardan səmərəli istifadə edək.

* * *

Kənd icra nümayəndəsi Nəbi Mürsəquliyevin hesabat məruzəsi geniş müzakirə olundu. Çıxış edənlər onun bir illik fəaliyyətini kafi qiymətləndirdilər.

Müzakirələrdə məktəbin direktoru Ə. Mustafayev çıxış edərək məktəbin dam örtüyünün təzələnməsi üçün müvafiq təşkilatlar qarşısında məsələ qaldırılmasını təklif etdi. Kənd sakini Elmar Hüseynov əhalinin içməli suya olan tələbatının tam ödənilməsi üçün kənddə bir ədəd subartezian quyusunun qazılmasını, kənd xəstəxanasının müdiri İlham Sofiyev kənd xəstəxanasının qazla təmin olunması üçün əlaqədar təşkilatlar qarşısında məsələ qaldırılmasını təklif etdilər.

Hesabat yığıncağında Rayon icra hakimiyyətinin məsul işçisi Ramiz İmanov iştirak etmişdir.

## Köçəsgər kəndi

Rayonun ən iri yaşayış məntəqələrindən biri də Köçəsgər kəndidir. Şöhrət Məmmədov bir neçə ildir ki, Ağstafa rayon İcra Hakimiyyəti Başçısının Köçəsgər kəndi üzrə nümayəndəsi vəzifəsində işləyir. Onun işlədiyi dövrdə kəndin sosial-iqtisadi həyatında bir sıra dəyişikliklər olmuş, kəndin abadlaşması, əhalinin maddi rifah halının yaxşılaşdırılması istiqamətində əməli tədbirlər görülmüşdür.

Yanvar ayının 13-də kəndin inzibati ərazi dairəsinin nümayəndəsi Ş. Məmmədov 2015-ci ildə kənddə görülmüş işlərə dair hesabat vermişdir.

Ş. Məmmədov qeyd etmişdir ki, kəndin ərazisində 1593 təsərrüfat olmaqla burada 5632 nəfər əhali yaşayır. Köçəsgər kəndinin ərazisi 3846 hektardır ki, bu da ətraf kəndlərin ərazilərindən xeyli böyükdür.

Kəndin əhalisinin xüsusi mülkiyyətində 372 hektar həyətyanı, 878 hektar pay torpağı vardır. Qalan 2558 hektar isə yerli bələdiyyənin mülkiyyətindədir.

Torpaqların islahatı nəticəsində kəndin əhalisinə verilmiş pay torpaqları kənd əhalisinin əsas məşğulluq yeridir. 1214 ailəyə verilmiş pay torpağında əsasən kənd təsərrüfatı məhsulları yetişdirilir və heyvandarlıqla məşğul olunur.

Kəndin iqtisadiyyatının əsasını əkinçilik və heyvandarlıq təşkil edir. Kənddə 2014-cü ildə 691 hektar taxıl əkilmiş, 2015-ci ildə isə növbəli əkinə keçilərək 457 hektar sahədə dənli bitkilər səpilmişdir. Əkilmiş səpin sahələrinin 397 hektarını buğda, 60 hektarını arpa təşkil edir.

Kənd əhalisinin bir qismi heyvandarlıqla məşğul olur. Aparılmış təhlil göstərir ki, 2015-ci ilin sonuna kəndin təsərrüfatlarında 521 baş iribuynuzlu mal-qara, 11945 baş xırda buynuzlu davar, 18603 baş quş qeydə alınmışdır. Bütün bu göstəricilər 2014-cü ilin müvafiq dövrü ilə müqayisədə xeyli çoxdur. Bu müvəffəqiyyətlər əkinçilik və heyvandarlıqla məşğul olan kənd əhalisinə göstərilən diqqət və qayğı nəticəsində əldə olunmuşdur.

Ş. Məmmədov öz məruzəsində qeyd etmişdir ki, kənd bələdiyyəsi həmişə icra nümayəndəsi ilə birgə çalışmış və bu birgə səy kənddə bütün sahələrdə əldə edilən nailiyyətlərdə özünü büruzə vermişdir. Hesabat dövründə kənd bələdiyyəsinin maliyyə vəsaiti və daxili imkanları hesabına kəndin ana yolları, kənddəki 1 və 2 saylı tam orta məktəblərə gedən yollar və məktəblərin həyətləri əsaslı təmir edilmişdir.

Yeni salınmış məhəllələrdə 11 ədəd, ümumi kənd ərazisində isə 20-dən artıq elektrik dayaqları, elektrik xətləri yenisi ilə əvəz olunmuşdur.

Kənd əhalisinin içməli suya olan tələbatının ödənilməsi üçün xeyli iş görülmüşdür. Belə ki, içməli su xəttinin Həsənsu çayından keçən hissəsində 400 millimetrlik borunun xeyli hissəsi yenisi ilə əvəzləşdirilmişdir. Bütün bunlardan əlavə, kənddə əhalinin içməli suya tələbatının daha çox ehtiyac olan yerlərində 1 ədəd subartezian quyusu qazılıb istifadəyə verilmişdir. Həmçinin, pay torpaqlarının suvarılması işində də xeyli irəliləyiş olmuş və 2015-ci ilin hesabına daha bir subartezian quyusunun layihəsi işlənib hazırlanmışdır.

Kənd əhalisinin sosial qayğıları həmişə nümayəndəliyin diqqət mərkəzində olmuşdur. Kənddə mənzillərə təbii qazın verilməsi işi demək olar ki, tam təmin olunmuşdur. Belə ki, hesabat dövründə kənddə mövcud olan köhnə qaz xətləri yenisi ilə əvəz olunmuş, yeni salınmış məhəllələrə qaz xətləri çəkilmişdir. Hazırda kəndin yeni yaşayış məhəllələrinin qazlaşdırılması işi davam etdirilir.

Hesabat ilində kənd əhalisinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması sahəsində də xeyli iş görülmüşdür. Təkcə bunu qeyd etmək kifayətdir ki, 2015-ci ildə kənddə 11 yeni yaşayış evi tikilmiş, 16 minik maşını alınmış, 1 ədəd traktor, 1 ədəd taxılsəpən maşın, 1 ədəd kombayn və 1 ədəd kotan alınmışdır.

İcra nümayəndəsi hesabat məruzəsinin sonunda 2016-cı ildə qarşıda duran vəzifələr barədə məlumat verərək qeyd etdi ki, kənd əhalisinin içməli suya olan tələbatının tam ödənilməsi üçün Həsənsu içməli su mənbəyindən kəndə daxil olan ana xətlərin yenidən qurulması üçün tədbirlər planı hazırlanmışdır. Əkin sahələrinin suvarılmasını təmin etmək üçün kənddə 2 ədəd yeni subartezian quyusunun qazılması, 2 saylı orta məktəb müasir tələblərə cavab vermədiyi üçün həmin məktəbin yerində yeni məktəb binasının inşa olunması, yeni tibb məntəqəsinin tikilməsi, təzə məhəlləyə 2 ədəd elektrik transformatorun qoyulması nəzərdə tutulur.

Kəndin mərkəzindən gedən "Acıdərə" adlanan sahədə qaynama sularının nəticəsində yaşayış evlərinə dəyən ziyanın qarşısının alınması üçün 2016-cı ildə müvafiq tədbirlərin görülməsi nəzərdə tutulur. Ağstafa-Köçəsgər avtomobil yolunun yenidən qurulması üçün müvafiq təşkilatlar qarşısında məsələ qaldırılması və bu yolun müasir tələblər səviyyəsində təmir edilməsi qarşıdakı ildə iş planına salınmışdır.



Hesabat məruzəsi yığıncaqda geniş müzakirə olundu. Müzakirələrdə kənd uşaq bağçası-körpələr evinin müdiri Sevda Rəhimova, kənd sakinləri Elbəyi Qasımov, Arif Həsənov, Yazgül Namazova, Rafiq Sadıxov çıxış etdilər.

Yığıncaqda Rayon icra hakimiyyətinin məsul işçisi K.Abbasov çıxış edərək son illər rayonda və eləcə də rayonun bütün yaşayış məntəqələrində aparılan yenidənqurma, tikinti-abadlıq işlərindən ətraflı danışdı.

K.Abbasov çıxışının sonunda kənd sakinlərini əmin etdi ki, Rayon icra hakimiyyəti bundan sonra da Köçəsgər kəndinin bütün əhalisinin qayğısına qalacaq, kənddə mövcud olan problem və çətinliklərin aradan qaldırılması üçün bütün imkanlardan səmərəli istifadə edəcəklər.

*Ağxalatlılarımız haqqında*

# Onu hamı tanıyır

***Deyirlər uşaq yaşlarından insanın qəlbində sonsuz arzu və istək baş qaldırır. Bu arzular illər ötdükcə hər kəsin özü ilə bərabər boy atır, qanadlanıb pərvazlanır, sahibini məqsədinə çatdırır. Yusif müəllimin sonbeşiyi Adilin də ürəyində lap erkən çağlarından şirin arzular qönçə bağlamışdır. Bu arzular içərisində həkim olmaq istəyi daha parlaq, daha işıqlı idi. Əslində atasının evdəki söhbətlərindən baş qaldırmışdı onda həkimlik arzusu. Övladlarının gələcəyi ilə maraqlanan, onların hansının hansı peşəyə daha çox meyil etdiklərini yaxşı bilən Yusif müəllim qızı Gülnaza da, oğlu Adilə də həmişə tövsiyə edirdi ki, sizdən əsil həkim olar. İnsan sağlamlığının keşiyində dayanmaq həyatda ən şərəfli peşələrdən biridir.***



Adildən böyük bacıları Gülnaz və Gülşən orta məktəbi qurtarandan sonra müvəffəqiyyətlə imtahan verib Azərbaycan Dövlət Tibb İnstitutuna qəbul olanda onların ailəsində bəlkə də hamıdan çox sevinən Adil idi. Taleyini bu nəcib peşəyə həmişəlik bağlayan bacıları onun da çoxdan bəri ürəyində gəzdirdiyi müqəddəs arzunun reallığa çevrilməsinə zəmin yaratmışdı.

Bəli, illər hiss olunmadan, heç nəyə məhəl qoymadan ötüb gedir. Adil də gözünü açanda gördü ki, artıq böyüyüb, orta məktəblə vidalaşmaq vaxtıdır. Kamal attestatı imtahanlarını sevinclə başa çatdırıb dərhal da sənədlərini nizamladı və Bakıya Tibb İnstitutuna yollandı. Qəbul imtahanları onun üçün heç bir çətinlik törətmirdi. Axı, Adil Babanlı o zamanlar nümunəvi təhsil ocağı kimi şöhrəti respublikanın hər tərəfinə yayılmış 24 nömrəli Ağstafa dəmiryol orta məktəbinin məzunu idi. Bundan əlavə o, Yusif Babanlı kimi zəngin təcrübəli, geniş biliyə malik ziyalı, usta pedaqoq tərbiyəsindən bəhrələnmişdi. Ona görə də qəbul imtahanlarından üzüağ çıxaraq N. Nərimanov adına Azərbaycan Tibb İnstitutunun müalicə-profilaktika şöbəsinə daxil oldu.

Bu münasibətlə dost-tanışlar, yaxın-doğmalar Yusif müəllimi və Zeynəb ananı ürəkdən təbrik etdilər. Ona görə yox ki, Yusif Babanlının oğlu Tibb İnstitutuna qəbul olmuşdu. Ona görə ki, Yusif müəllimin səkkizinci uşağı da ali təhsil müəssisəsində təhsil alıb xalqına xidmət edəcəkdi. Sadə müəllim zəhməti ilə o, yeddi övladına ali təhsil verib insanlara gərək bir övlad kimi böyütmüş və sərbəst həyata qanadlandırmışdır. Sonbeşiyi Adil də bu ailənin ənənəsinə sadiq qalaraq tələbə adını qazandı və qardaş-bacıları kimi bütün diqqətini elmin incəliklərini dərindən öyrənməyə yönəltdi.

Çəkilən zəhmət hədər getməz deyib atalar. Adil Babanlının da gecə-gündüz gərgin çalışqanlıqla bilik öyrənməsi, həkimliyin sirlərinə yiyələnməsi bəhrəsiz qalmadı. 1981-ci ildə o, həkimlik diplomu alaraq ağ xalatlı həkim kimi işə başladı. Özü də doğma Ağstafada. Düzdür, ilk vaxtlar onu burada yüksək vəzifələr gözləmirdi. Əmək fəaliyyətinə o, Ağstafa şəhər xəstəxanasının təcili yardım şöbəsində növbətçi həkim kimi başlamışdı. O vaxtlar işin çoxluğu, əmək haqqının azlığı gənc həkim Adil Babanlını əsla qorxutmurdu. Onu yalnız bir şey düşündürürdü: insanlara xidmət etmək, kiminsə harayına çatmaq, hər kəsin sağlamlığını qorumaq üçün bilik və bacarığını sərf etmək.

Bu arzu diləklə Adil Babanlı təcili yardım maşını ilə çoxlarının dadına yetdi, dara düşənlərə əl uzatdı, neçələrini vaxtsız ölümün pəncəsindən qurtardı. Nə çox, nə az, düz səkkiz il təcili yardım şöbəsində çalışdıqdan sonra onu Ağstafa şəhər xəstəxanasının poliklinikasına sahə həkimi təyin etdilər. Bir il sonra isə xəstəxanaya terapevt keçirdilər. Bəli, Adil Babanlı gənc olsa da artıq səhiyyə sahəsində kifayət qədər təcrübə toplamış, iş yoldaşlarının dərin rəğbətini qazanmış, müalicə etdiyi xəstələrdən xeyir-dua almışdı.

Adil Babanlının bir xoşbəxtliyi vardı ki, xalat geyinib həkim kimi fəaliyyətə başladığı gündən ən qabiliyyətli, nüfuzlu və qayğıkeş loğmanların əhatəsinə düşmüşdü. O zaman uzun müddət xəstəxananın baş həkimi olmuş Məmməd Məmmədov, kifayət qədər ad-sanı və təcrübələri olan tanınmış həkimlər Suqra Bayramova və Sabir Məmmədov, aralarında bir az yaş fərqi olan səmimi yoldaş, gülərüz və zarafatcıl insan Vaqif Həsənov onun həyatda bir həkim kimi yetişməsində çox böyük əmək sərf etmişlər. Onların xeyirxah məsləhətlərindən, qiymətli tövsiyələrindən bu gün də minnətdarlıq hissi ilə istifadə edən Adil Babanlı bu xalq həkimlərini həmişə hörmətlə yada salır.

Həyatda hər kəs öz əməyi, tükənməz zəhməti ilə yüksəlir. Adil Babanlı da gərgin zəhməti ilə daim ucaldı, el-oba içində, səhiyyə kollektivləri arasında yaxşı ad qazandı. Respublikamızda ikinci dəfə müstəqilliyimiz bərpa edildikdən sonra səhiyyə sahəsində də lazımi islahatlar aparıldı. Ağstafa rayon kimi fəaliyyətə başlayanda xəstəxanamız da müstəqil işləməyə başladı. Həmin illərdə Adil Babanlı 1991-1997-ci illərdə rayon xəstəxanasında baş həkimin müavini kimi fəaliyyətini davam etdirmişdi. Bu illərdə öz işinin öhdəsindən ləyaqətlə gələn Adil Babanlı həmin vəzifədə hamının rəğbətini qazanmış, insanların sağlamlığı keşiyində sayıq dayanmışdır.

Artıq yaş öz işini deyir. Adil Babanlı da təbiətin hökmü ilə yavaş-yavaş yaşa dolur. Həyatı boyu sağlamlıq carçısı olan, hamının sağlam yaşaması qeydinə qalan Adil Babanlı artıq 60 yaşı haqlamaq üzrədir. Buna baxmayaraq o, peşəsini əvvəlki məhəbbətlə sevir, insanlara xidmət göstərməkdən, onların sağlamlığını qorumaqdan ləzzət alır. Adil Babanlı 1997-ci ildən Ağstafa şəhər poliklinikasında qastroekteroloq (mədə-bağırsaq həkimi) kimi çalışır. Ötən illər ərzində qazandığı hörmət, etimad və inam sahəsində bu gün də onun əlindən şəfa tapmaq arzusunda olanların sayı azalmır, əksinə günü-gündən artır. Elə buna görə də onun bir an belə boş vaxtı olmur, həmişə iş kabinetinin qarşısı adamla doludur. Hətta axşamlar evində də onun rahatlığını pozanlar olur. Həkim bundan hec vaxt incimir, əksinə, hamıya izah edir ki, bəzən bir dəqiqə xəstəliyin müalicəsi üçün böyük əhəmiyyət kəsb edir.

Adil Babanlı xoşbəxt həkim olduğu kimi, gözəl də ailə başçısıdır. Həyat yoldaşı Aybəniz xanım Ağstafa şəhər 1 nömrəli tam orta məktəbində rus dili müəllimidir. Qızı Zeynəb və oğlu Ramin ali təhsil aldıqdan sonra Bakı şəhərində işləyirlər. İki nəvəsi bu xoşbəxt ailənin fərəhi və sevincidir.

***F. Heydərli***



# Rəhbər yerində olanda

Rayonun qədim tarixə malik ümumtəhsil məktəblərindən biri də Aşağı Kəsəmən tam orta məktəbidir. Bu təhsil ocağı 1982-ci ildə məktəbi bitirmiş, 1993-cü ildə isə hərbi xidməti borcunu yerinə yetirərkən şəhid olmuş Şahin Abadovun adını daşıyır.

Son illər rayonun təhsil müəssisələrinin maddi-texniki bazalarının möhkəmləndirilməsi istiqamətində aparılan yenidənqurma işləri Aşağı Kəsəmən kəndində də özünü büruzə vermiş və bu kənddə başqa işlərlə yanaşı 2006-cı ildə 480 yerlik yeni məktəb binası inşa olunmuşdur. Hələ yeni məktəb binası inşa olunmamışdan bir neçə il əvvəl, daha doğrusu 2000-ci ildən bu təhsil ocağının kollektivinə rəhbərlik etmək öz bacarığı, qabiliyyəti ilə xüsusilə fərqlənən Mətanət Məmmədovaya həvalə edilmişdir.

Mətanət Məmmədova 1987-ci ildə Bakı Dövlət Universitetinin fizika fakültəsini bitirmiş, bir müddət Azərbaycan Elmlər Akademiyasında Cəlal Əliyevin rəhbərlik etdiyi laboratoriyada kiçik elmi işçi kimi fəaliyyət göstərmişdi. O, doğma rayonuna qayıtdıqdan sonra bir qədər Zəlimxan kənd məktəbində müəllim, 3 il isə rəhbərlik etdiyi Aşağı Kəsəmən kənd tam orta məktəbində təşkilatçı müavin işləmişdir.

Bəli, bu gün Aşağı Kəsəmən tam orta məktəbi rayonun ən nümunəvi təhsil müəssisələrindən biri hesab edilir. Bu məktəbdə gənc nəslin təlim-tərbiyəsi ilə 48 nəfər müəllim məşğul olur ki, onların da əksəriyyəti ali təhsillidir. Hazırda məktəbdə 21 sinif vardır ki, onların ikisi buraxılış sinfidir.

Ötən dərs ilində məktəblə vidalaşan 29 nəfər məzundan 8 nəfəri ali və orta-ixtisas təhsil müəssisələrinə müvəffəqiyyətlə imtahan vermiş, 6 nəfər məzun isə Bakı şəhərində yerləşən kollecərə qəbul olunmuşdur. Bu göstəricilər digər kənd məktəblərinin göstəriciləri ilə müqayisə edildikdə belə bir fikir söyləməyə əsas verir ki, məktəbin rəhbəri yerində olmaqla təlim-tərbiyə işləri nümunəvi təşkil edilmiş, müəllimlərin çəkdikləri zəhmət öz uğurlu nəticələrini vermişdir.

Bu günlər məktəbdə olarkən, məktəbin direktoru Mətanət Məmmədova ilə görüşüb söhbət etdik. O, özü haqqında danışmağı xoşlamayan, rəhbərlik etdiyi kollektivdə öz iş qabiliyyətinə görə fərqlənən müəllimlərin əməyinə yüksək qiymət verən bir rəhbərdir. Məktəbdə son illər əldə olunan nailiyyətləri, yüksək göstəriciləri ona xatırladanda hamısını kollektivin gərgin əməyinin bəhrəsi kimi qiymətləndirdi. Mətanət Məmmədova məktəbdə qazanılan nailiyyətlərdə məktəb-valideyn komitəsinin, qocaman valideynlərin fəaliyyətinin rolunu xüsusi vurğuladı. O, bildirdi ki, məktəb-valideyn komitəsinə Cavid Süleymanov rəhbərlik edir. Onun rəhbərliyi ilə ildə iki dəfə komitənin iclası keçirilir və məktəblə valideynlər arasında əlaqələrin möhkəmləndirilməsi üçün lazım olan bütün tədbirlər görülür. Mətanət müəllimə öz nəvəsi ilə birlikdə tez-tez məktəbə gələn Rasim Seyidov haqqında da ürəkdolusu danışdı. O, qeyd etdi ki, Rasim baba məktəblə sıx əlaqədə olur və bizə həmişə dəyərli məsləhətlər verir.

Məktəbdə bacarıqlı və savadlı müəllimlər çoxdur. Direktor məktəbin dil-ədəbiyyat müəllimi Leyla Kərimovadan, coğrafiya müəllimi Əminə Abbasovadan, riyaziyyat müəllimi İmran Nəsibovdan, xarici dil müəllimi Səhlədar Nəbiyevadan, kimya müəllimi Aidə Qasımovadan ürəkdolusu danışdı. Bildirdi ki, biz belə müəllimlərin gücü ilə yüksək nəticələr əldə edirik. Bu müəllimlərin gərgin əməyinin bəhrəsidir ki, məktəbimizin şagirdləri rayonda keçirilən bilik yarışlarında uğurlu nəticələr əldə edirlər. Məktəbimizin 10-cu sinif şagirdi Aygün Şirinovanın inşa yazı müsabiqəsində rayonda birinci yerə çıxması və respublikada keçiriləcək yarışa vəsiqə alması müəllimlərimizin yaxşı işinin bəhrəsidir.

Mətanət Məmmədova söhbət zamanı rayon mərkəzindən bir qədər aralıda yerləşən Aşağı Kəsəmən kəndində belə gözəl, müasir tipli məktəbin inşa olunmasına münasibət bildirərək dedi ki, şəxsən mən, kollektivimizin bütün üzvləri bu xeyirxah işə görə möhtərəm prezidentimiz cənab İlham Əliyevə dərin minnətdarlığımızı bildiririk.

Artıq məktəbimizin inşa olunmasından 10 ilə yaxın vaxt keçir. Ötən dövrlərdə məktəbimizdə müəyyən problem və çətinliklər yaranmış və bu problemlərin aradan qaldırılması üçün biz rayon rəhbərliyinə müraciət etmişik. Məktəbimizdəki vəziyyətlə Rayon icra hakimiyyətinin başçısı cənab Məhərrəm Quliyev özü şəxsən maraqlanmış, məktəbin istilik sistemində mövcud olan problemin həll edilməsi təmin edilmişdir. Mən fürsətdən istifadə edib hörmətli başçımıza dərin minnətdarlığımı bildirir və onu əmin etmək istəyirəm ki, biz də bu qayğıya öz layiqli işimizlə cavab verəcəyik.



Hazırda Aşağı Kəsəmən tam orta məktəbində 347 nəfər şagird təhsil alır. Məktəbin rəhbərliyi və müəllimlərlə apardığımız söhbətlərdən belə bir nəticə çıxarmaq olar ki, kollektiv əvvəlki dərs illərində əldə etdikləri uğurlu nəticələrin sayını daha da artırmaq üçün bundan sonra da səylə çalışacaqdır.

***İbrahim Əliyev***

# Poeziya səhifəsi

## Olmuşam

Yaranandan səbirsizəm, ay lələ,
Tez qızışan, tez alışan olmuşam,
Asan almamışam özümü ələ,
Kəm hövsələ, coşub-daşan olmuşam.

Ancaq deyim kövrək, incə qəlbim var,
Həm sevincim, həm kədərim, qəmim var,
Şair olmasam da bir az təbim var,
Söhbət açıb, söz də qoşan olmuşam.

Dərd şələtək yüklənibdi belimə,
Dost var olsun, əl uzadib əlimə,
Varlığımla borcluyam mən elimə,
Qismətimlə tez barışan olmuşam.

Arif heyran hər bir gülün ətrinə,
Səbirlinin ağlasığmaz səbrinə,
Çaşıb dəysəm bircə kəsin xətrinə,
İnan sonra çox pərişan olmuşam.

***Arif Musazadə,***
***Tatlı kəndi***



## Bahar gələndə

Boranın-çovğunun, şaxtanın-qarın
Buz qəlbi yarılar bahar gələndə,
Yağış çisəkləyir hey narın-narın,
Təbiət durular bahar gələndə.

Yuxudan oyanar dərə də, dağ da,
Gəlintək bəzənər baxça da, bağ da,
Bülbül cəh-cəh vurar yaşıl budaqda,
Toy-büsat qurular bahar gələndə.

Nazlanar çiçəklər, şehdə daranar,
Lalənin köynəyi alışar, yanar,
Çöl-çəmən al-yaşıl rəngə boyanar,
Sarmaşıq sarılar bahar gələndə.

Sevməyən olarmı yaz aylarını,
Gah isti, gah soyuq boz aylarını,
May kimi işvəli qış aylarını,
Gül-gülə vurular bahar gələndə.

Əlvan fəsillərin gözüdür bahar,
Könlümün ruhunun özüdür bahar,
Seirimin canıdır, sözüdür bahar,
Şahin də dirilər bahar gələndə.

***Şahin Qurban,***
***Ağstafa şəhəri***



## Ana əvəzi

***Bacım Məryəmin əziz xatirəsinə***

Bir bacı itirdim ana əvəzi,
Adı yanaşıdır namus, ar ilə,
Qulağımdan getmir "aman" kəlməsi,
Tez oldu görüşü onun gor ilə
Adı yanaşıdır namus, ar ilə.

Analar anası ixtiyar qadın
Səksən iki illik ömür yaşadın
Sən qadın adını təmiz daşıdın,
Öyünmədin mal-dövlətə, var ilə,
Adı yanaşıdır namus, ar ilə.

Bir evin sönməyən çırağı idin,
Ailənin namus sorağı idin,
Alınmaz qalası, yarağı idin,
Yeddi övlad böyütdünüz yar ilə,
Adı yanaşıdır namus, ar ilə.

Qohum-qonşularla səsin gəlmədi,
Evinin sirrini kimsə bilmədi,
Xoş əməlin qəlbimizdə ölmədi,
Dinib danışmadın böhtan, şər ilə
Adı yanaşıdır namus, ar ilə.

İtirdik öz səbrimizi, İlahi,
Göz qarası didəmizi, İlahi,
Apardın saf qəlbimizi, İlahi,
Ayrıldıq əbədi səndən zor ilə,
Adı yanaşıdır namus, ar ilə.

***Nəriman Mehixanlı***



## Layla istəyirəm

Könül doymayıbdı körpəliyində,
Saçın çal vədəsi laylalar istər,
Bir də dirsəklənim ana dizinə,
Ay Allah, ay Tanrı, möcüzə göstər.

Torpaq daxmamızın bir bucağında
Beşik yırğalanır yenə cırhacır,
Niyə oyanmırsan, ana, dursana,
Körpən nənnisində səni çağırır.

Gah layla deyirsən, gah kiriyirsən,
Qaçıram səsinə çata bilmirəm,
Heç rəhmin yoxdumu, de, neyləyirsən,
Axı mən laylasız yata bilmirəm.

Həyat öz işində, öz əməlində,
Ana əllərinin istisi çatmır,
Min dəfə "can" desin qız da, gəlin də,
Anamın "canı"tək canıma yatmır.

Qəbrinin üstündə sakitləşirəm,
Yoxsa burada da layla oxuyur,
Sən bir hikmətə bax, fikirləşirəm-
Yatdığı torpaq da layla qoxuyur...

***Məhəmməd Mahmudlu***

## Bəsdi

Qarabağ adlı bir yaram var mənim,
Açın, bağlı qalıb simlədi, bəsdi,
Qoy payını alsın yağı düşmənim,
Havadarı kimdi, kimlədi bəsdi.

Gələcək nəsillər salar qınağa,
Vaxtdır, ay igidlər, qalxın ayağa,
Torpaq mal ha deyil edək sadağa,
Torpaqlar altında inlədi bəsdi.

Saxta tarix yazıb iz silənlərin,
Arif, fikri nədir bu gələnlərin,
Dunya birliyində başbilənlərin
Xalq yalan vədini dinlədi bəsdi.

***Arif Musazadə,***
***Tatlı kəndi***



## İstəyir

Allahın əlində olan dünyanı,
Nadanlar dağıdıb sökmək istəyir,
Anlaya bilmirəm, dara düşəndə,
Bəs niyə yalvarıb kömək istəyir.

Əlinə keçəni qıymaq istəmir,
Ötən günlərini saymaq istəmir,
Bu naz-nemətlərdən doymaq istəmir,
Fələk qamçısını yemək istəyir.

Günəşə baş əyib aya yoldaş ol,
Suyu, torpağı da qoy olsun halal,
Cənnət qapısına açılacaq yol,
Novruz da bax bunu görmək istəyir.

***Novruz Bəhramlı,***
***Qırlı kəndi***



## Bilər

Sorsan məhəbbətin ülvi adını,
Yuxuları ərşə çəkilən bilər,
Onun əzabını, onun dadını,
Günü göy əskiyə bükülən bilər.

Dodaqlar yananda dil kabab olar,
Kərəm-Əsli belə eşqə bab olar,
İstəsən görəsən kimdə tab olar,
Göz yaşı sel kimi tökülən bilər.

Pərvanələr şam nuruna həsrətdi,
Yanan yanır, yanmayana ülfətdi,
Həmidoğlu, bax bu əsil hikmətdi,
Can evi dağılıb sökülən bilər.

***Qurban Həmidoğlu,***
***Ağstafa şəhəri***



## Məndədi

Gülən ömürlərin, sönən ocağın,
Nəşəsi məndədi, közü məndədi,
Nakam övladını ağlayanların
Ağısı məndədi, sözü məndədi.

Məndədi yarası qəlbi viranın,
Məndədi tarixi hər ötən anın,
Məndədi mənbəyi qəmin, hicranın,
Zülmətli günlərin yüzü məndədi.

Məndə hər körpənin ümüd payı var,
Gəzib paylayıram diyarbadiyar,
Məndədi qarlı qış, məndədi bahar,
Şıltaq bir həyatın nazı məndədi.

Ağlar qoydu övladını, yarını,
Aldı gözlərimin işıq-nurunu,
Arsız əcəl bilmir abır-arını,
Deyəsən indi də gözü məndədi.

Ayı-günü keçmiş qoca babayam,
Kimsə götürməyən ağır bir tayam,
Faziləm, qara daş, lil axan çayam,
Sevincin, şadlığın azı məndədi.

***Fazil Sadıq,***
***Qırlı kəndi***

# Yollar təmir olunur

***Şaxtalı qış günləri rayonun bir çox xidmət təşkilatları ilə yanaşı, 26 saylı Yol İstismar İdarəsinin kollektivini də imtahana çəkdi. 2016-cı ilin ilk günlərində rayonumuza yağan güclü qar yollarda avtomaşınların və eləcə də piyadaların hərəkətlərində xeyli çətinliklər yaratdı. Həmin günlərdə Yol İstismar İdarəsinin işçiləri öz daxili imkanlarından istifadə edərək bu çətinliklərin aradan qaldırılması üçün əllərindən gələni etdilər. Şaxtalı günlərdə rayonun ərazisində yerləşən avtomobil yollarına, piyadaların hərəkət etdikləri səkilərə sürüşkənliyin qarşısını almaq üçün qum səpildi, xır töküldü. Görülmüş tədbirlər baş verə biləcək xoşagəlməz hadisələrin qarşısını aldı.***



Yol İstismar İdarəsinin işçiləri bu günlər daha səmərəli işlərə start vermişlər. Kollektivin gördüyü işlərlə tanış olmaq və bu barədə oxuculara məlumat vermək üçün idarənin məsul işçisi Natiq Eyyubovla görüşüb söhbət etdik. O, suallarımızı cavablandıraraq dedi:

- Bu günlər havaların əlverişli keçməsi kollektivimizin qarşısında duran vəzifələrin yerinə yetirilməsi üçün əlverişli şərait yaratmışdı. İdarəmizin tabeliyində olan 7 ədəd avtomobil, 2 ədəd avtoqreyder, 2 ədəd ekskavator, 2 ədəd yükləyici texnika, 1 ədəd yolbasan maşın (vərdənə) şəhərimizin yollarının təmir edilməsinə yaxşı imkanlar yaradır. Hazırda şəhərimizin kənarında yerləşən Şəhidlər xiyabanına gedən yolda təmir işi aparırıq. Bundan sonra Azadlıq küçəsində və eləcə də Şahmat məktəbinin yaxınlığından 3 saylı orta məktəbə qədər olan yolda təmir işləri aparmalıyıq. Bütün bu işləri başa çatdırdıqdan sonra Hüseyn Arif küçəsinin qurtaracağında yerləşən təzə məhəllələrdəki küçələrdə təmir-bərpa işlərinə başlayacağıq. Eyni vaxtda şəhərimizin mərkəzi küçələrindəki asfalt örtüyünün zədələnmiş yerlərini də təmir etməyi nəzərdə tuturuq. Bir sözlə, elə edəcəyik ki, şəhərimizin sakinləri gördüyümüz işlərdən razı qalsınlar.

***İ. Əliyev***

# Donuz qripi

***Ümumdünya Səhiyyə Təşkilatının yaydığı məlumata görə , virus “Donuz Qripi” adlansada əslində müxtəlif H1N1 viruslarının qarışığından yaranıb - donuz qripi, quş qripi və insan qripi. Bu üzdən viruslara həm donuzların , həm quşların, həmdə insanların yoluxması mümkündür. Adi öskürək və asqırıqla ətrafa yayılan damcılar və xəstə insanla yaxın kontaktla xəstəlik asanlıqla yayıla bilər.***

Donuz qripinə ilk dəfə 2008 - ci ilin aprelində Meksikanın La - Qloriya kəndində yaşayan beş yaşlı oğlan Edqar Ernandes donuz ferması yaxınlığında yoluxub.

Həmin vaxtdan dünyanın 135 ölkəsində 134 mindən çox adam bu qripə tutulub ki, onların da 700 nəfərdən çoxu dünyasını dəyişib. Xəstələrin sayı ABŞ, Meksika, Kanada Böyük Britaniya, Çili və Avstraliyada daha çoxdur.

Donuz qripi donuzlarda il boyu özünü biruzə verə bilər. Xəstəliyə yoluxanlar özlərini əzgin, yorğun hiss edirlər, boğazları qaşınır, əzələlər ağrıyır, quru öskürək müşahidə olunur. Donuz qripinə qarşə hələlik heç bir peyvənd yoxdur.

**Əlamətləri.**

A/H1H1 tipli qrip yüksək patogenli virus ştampının törətdiyi kəskin infeksion xəstəlikdir. Virus asanlıqla insandan insana hava, damcı yolu ilə keçir və bir neçə saatdan 7 günə qədər olan müddətdə özünü göstərir. Xəstəliyin ilk əlamətləri yüksək hərarət, öskürək, boğazda ağrı, zökəm, baş və əzələ ağrıları, bəzi hallarda qusma və diaeriyadır.A/H1N1 virusu ilə yoluxmuş şəxslər əsasən xəstəliyin başlandığı ilk 7 gün ərzində potensial yoluxdurucu hesab edilməlidir. Uşaqlar, xüsusəndə azyaşlı uşaqlar daha uzun müddət ərzində potensial yoluxdurucu ola bilər. A/H1N1 virus tipi ilə xəstələndiyi təsdiq olunmuş şəxslər xəstəxanaya yerləşdirilmədiyi hallarda və ya xəstələnmə şübhəsi olan şəxslər ev şəraitində, ən azı xəstəliyin başlandığı ilk 7 gün ərzində təcrid edilməlidir. Xəstəliyin ilk əlamətləri müşahidə edildikdə təcili evə həkim çağırmaq, çoxlu miqdarda maye qəbul etmək, masqa və pambıq tənzifli masqa taxmaq , əlləri tez tez sabunla yumaq lazımdır. Ailədə xəstə şəxslə təmas zamanı gigiyena qaydalarına əməl edilməlidir. Xəstəlik əlamətləri baş verərsə mütləq evdə qalmaq, iş və ya təhsil müəssisələrinə getməkdən, kütlə ilə təmasdan çəkinmək., insanlarla təmasa girməmək, xəstəliklə bağlı yaşadığı ərazidə həkimə məlumat vermək və rayon GEM - nə təcili bildiriş göndərmək lazımdır.

A/H1N1 virusundan necə qorunmaq lazımdır.

*- Yüksək hərarəti , öskürəyi, hərarəti olan şəxslərlə təmasdan çəkinmək.*

*- Əlləri tez - tez sabunla yumaq.*

*- Sabun və su olmadıqda əlləri spirtli tamponla silmək.*

*- Asqırdıqda və ya öskürdükdə ağzı salfet və ya dəsmalla silmək.*

*- Gözlərə, buruna, ağıza toxunmamağa çalışmaq.*

*- Sağlam həyat tərzi keçirmək, o cümlədən normal yuxuya riayət etmək.*

*- Vitaminlərlə zəngin qida qəbul etmək. fiziki aktivliyi artırmaq.*

*- Xəstələnərkən evdə qalmaq və tibbi xidmətə müraciət etmək.*

Ağstafa rayonunda da Donuz qripinə qarşı profilaktik tədbirlər planı hazırlanmışdır. Səhiyyə Nazirliyinin 101 saylı əmrinə əsasən mərkəzi rayon xəstəxanasının yolxucu xəstəliklər şöbəsində, doğum şöbəsində , uşaq xəstəlikləri şöbəsində xüsusi təhlükəli infeksiyalar üçün xüsusi otaqlar ayrılmış, lazımı avadanlıqlar və dərmanlarla təmin edilmiş, xüsusi tibbi heyət xəstəlik haqqında məlumatlandırılmışdır. Hal - hazırda rayonda Donuz qripi qeydə alınmamışdır.

***Z. Nəbiyeva,***
***Ağstafa rayon GEM-nin direktoru***

# Uşaqlara qayğı gərəkdir

***Dövlətimizin ən çox diqqət yetirdiyi sahələrdən biri də uşaq bağçası və körpələr evləridir. Buna görə də bu müəssisələrin maddi və mənəvi cəhətdən təmin olunması icra hakimiyyəti orqanlarına həvalə edilmişdir. Təbii ki, uşaq və körpələrin sağlam böyüməsi, onların məktəbəqədər yaş dövrlərindəki hazırlıqları ilə müntəzəm qaydada məşğul olunmaları üçün şərait yaradılır.***

Belə qayğı ilə əhatə olunan uşaq bağçası-körpələr evinin biri də Vurğun qəsəbəsində yerləşir. Ötən günlərdə bir saylı müəssisənin əziz və kövrək sakinləri ilə görüşdük. Kiçik sakinlərin bizə “Xoş gəlmisiniz” demələri bizdə ilk təssürat yaratdı və burada işlərin yerində olmasından xəbər verdi. İçəri keçdik. Otaqlar isti idi. Qışın sazağı bayırda qalmışdı. Elə körpə fidanlara da bu lazım idi. Sinələri şeirlə, gülməcə ilə dolu olan yuxarı qrupun uşaqları verilən suallara bülbül kimi cavab verirdilər. Tərbiyəçiləri sözarası qeyd etdilər ki, hələ siz onları bayram tədbirlərində görəsiniz.

Bağçada üç yaş qrupu fəaliyyət göstərir. Bir yaşdan üçə, üçdən-beşə və beşdən-altıya qədər. Hər gün 25-30 uşaqla tərbiyəçilər tələb olunan qaydada məşğul olurlar. Yuxarı yaş qrupunun tərbiyəçisi Kəmalə Yusifova, orta yaş qrupunun tərbiyəçisi Şükufə Atakişiyeva və aşağı yaş qrupunun tərbiyəçisi Yeganə Qocayeva uşaqların təlim-tərbiyəsi ilə ciddi məşğul olurlar. Valideynlərin razılığını qazanan tərbiyəçilər uşaqlara hər gün yeni bir şey öyrədir, müsbət vərdişlər aşılayırlar.

Qəsəbədəki uşaq bağçası-körpələr evinə Süreyya



Qocayeva rəhbərlik edir. Onun vaxtilə böyüdüb tərbiyə verdiyi uşaqların indi bəlkə də bir neçəsinin burada nəvəsi var. Az vaxt deyil. Düz 1974-cü ildən burada çalışır. Zəngin təcrübəsi, dünyagörüşü var. Təminatdan, şəraitdən danışdı, yuxarı orqanlara minnətdarlığını bildirdi və onu da xüsusilə bildirdi ki, olduqları bina çox köhnəlib. Dam örtüyü təzələnməlidir. Yağış yağanda damır. Otaqlar da təmir edilməlidir.

Öyrəndik ki, bu uşaq bağçası-körpələr evi lap köhnə binadır. Daha doğrusu, qəsəbədə sovetlər dönəmində yaşayan almanların tikdiyi binadır. Düzdür, iri, hündür və işıqlı otaqlardır, lakin müasirliyə, yeni tələbata uyğun deyil. Qəsəbə rəhbərləri, nəvəsi, uşağı burada tərbiyə alan şəxslər birləşib buna bir əncam çəkməlidirlər.

***Q. Qurbanov***

## Etibarsız sayılır

Köçəskər kənd sakini Mərdanov Rəhim Ələsgər oğlunun adına olan 651 saylı Qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Düzqışlaq kənd sakini Niyazov Qulu Məhəmməd oğlunun adına olan JN89F nömrəli torpaq şəhadətnaməsi itdiyi üçün etibarsız sayılır.

## Elan

Azərbaycan Respublikasının Daxili İşlər orqanlarında vakant vəzifələrin komplektləşdirilməsi üçün orta rəis heyyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edilir.

Müsabiqədə dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası almış, silahlı qüvvələrdə həqiqi hərbi xidmətini tam başa vurmuş, yaşı 30-dan yuxarı olmayan, özü və yaxın qohumları məhkum olunmamış DİO-də xidmət keçmə haqqında əsasnamədə müəyyən olunmuş digər şərtlərə cavab verən Azərbaycan Respublikası vətəndaşları iştirak edə bilərlər.

Müsabiqədə aşağdakı sənədlər qəbul edilir.

***- Şəxsiyyət vəsiqəsi***
***- Ali təhsil haqqında diplom***
***- Hərbi bilet kişilər üçün***
***- Əmək kitabçası (olanlar üçün)***

DİO-da orta rəis heyyəti üzrə vakant vəzifələrin tam komplektləşdirilməsi müsabiqə üçün 2016-cı il yanvar ayının 21-dən fevral ayının 21-dək sənədlərin qübulu həyata keçirilir.

Əlavə məlumat almaq üçün Ağstafa rayon Polis Şöbəsinə müraciət edə bilərlər.

**Əlaqə telefonu: (070) 308-86-49; (050) 358-09-49**

## Allah rəhmət eləsin

Rayon icra hakimiyyəti aparatının işçiləri Ağstafa şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Nəriman Hacıyevə, atası
**Hümbət Hacıyevin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

“Ağstafa” qəzetinin əməkdaşları Ağstafa şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Nəriman Hacıyevə, atası
**Hümbət Hacıyevin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa şəhər bələdiyyəsinin işçiləri Ağstafa şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Nəriman Hacıyevə, atası
**Hümbət Hacıyevin**
vəfatından kədərləndiklərini bildirir, dərin hüznlə başsağlığı verirlər.

* * *

Ağstafa rayon maliyyə şöbəsinin müdiri Qoşun Heydərov Ağstafa şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Nəriman Hacıyevə, atası
**Hümbət** Hacıyevin
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

* * *

Ağstafa Hidroqovşaq Su İstismar İdarəsinin rəisi Yusif Nəsibov Ağstafa şəhər inzibati ərazi dairəsinin nümayəndəsi Nəriman Hacıyevə, atası
**Hümbət Hacıyevin**
vəfatından kədərləndiyini bildirir, dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR:**
**İBRAHİM ƏLİYEV**

**Həmtəsisçi:**
***“Ağstafa” qəzetinin jurnalist kollektivi***
***Şəadətnamə № 308***

***Redaksiya heyəti***
***L.Eyyubova, K.Abbasov, Q.Heydərov, İ.Əliyev, S.Qaratorpaq, L.İsayeva, G.Kərimov, A.Tağızadə, F.Heydərli***

***Qəzet redaksiyanın kompyüter mərkəzində yığılmış, səhifələnmiş və “Mətbuat firması” mətbəəsində çap olunmuşdur.***

***Ünvan:***
***Ağstafa şəhəri, Heydər Əliyev pros. - 10***
***Tel: 5-14-56***
***mob: (050) 344-26-20***
***Tiraj: 1000***